# Şəhid Cəmaləddin İbrahimovun nəşi Əmircan kənd qəbiristanlığında dəfn edilib






Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan İbrahimov Cəmaləddin İbad oğlunun nəşi paytaxtın Suraxanı rayonunun Əmircan kənd qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində kənd sakinləri, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Qeyd edək ki, Cəmaləddin İbrahimov 1994-cü ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

Azərbaycan.- 2024.- 16 avqust, (№ 174).- S.12.